**AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ**

**Ə M R**

**№ 51**

**Bakı şəhəri** „04" 07. 2018 **il**

**"Səhiyyə Nazirliyinin rəhbərliyi arasında vəzifə bölgüsü barədə"**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 13-cü hissəsini və 14.1-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyində kadr dəyişikliyi ilə əlaqədar nazirliyin rəhbər vəzifəli şəxsləri arasında vəzifə bölgüsünün müəyyən edilməsi məqsədilə

**əmr edirəm:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin rəhbər vəzifəli şəxsləri arasında aşağıdakı vəzifə bölgüsü müəyyən edilsin:

Nazir - Oqtay Kazım oğlu Şirəliyev

Nazirliyin Kollegiyası
Aparatın Kadrlar, elm və təhsil şöbəsi

Nazir müavini – Elsevər Məmməd oğlu Ağayev

Aparatın Maliyyə-iqtisadiyyat şöbəsi
Aparatın Səhiyyə obyektləri şəbəkəsinin inkişafının planlaşdırma şöbəsi
Aparatın İkinci şöbə
Aparatın Hüquq və daxili nəzarət sektoru

Nazir müavini – Nigar Ramiz qızı Əliyeva

Aparatın Tibbi yardımın təşkili şöbəsi
Aparatın Ümumi şöbə

Nazir müavini – Rahim Rafail oğlu Əliyev

Aparatın Sanitariya- epidemioloji nəzarəti sektoru
Aparatın Beynəlxalq əlaqələr şöbəsi

2 . Səhiyyə Nazirliyinin rəhbər vəzifəli şəxslərinin bir-birini əvəz etməsi aşağıdakı qaydada müəyyən edilsin:

Oqtay Şirəliyev –Elsevər Ağayev
Elsevər Ağayev–Nigar Əliyeva
Nigar Əliyeva –Rahim Əliyev

3. Səhiyyə Nazirliyinin struktur bölmələri rəhbərlərinin nəzərinə çatdırılsın:

3.1.Səhiyyə Nazirliyi Kollegiyasının qərarları, əmr, sərəncam və digər normativ sənədlərin layihələri Nazirə imzaya müvafiq şöbə və xidmət rəhbərləri, nazir müavinləri ilə razılaşdırıldıqdan sonra təqdim edilsin.

3.2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Nazirlər Kabinetinə, Milli Məclisə və digər respublika təşkilatlarına və dövlət mətbuat orqanlarına ünvanlanan məktublar Nazirə, o olmadıqda isə Nazir müavinlərindən birinə vəzifə bölgüsünə əsasən imzaya təqdim edilsin.

4. Səhiyyə Nazirliyinin 18.02.2009-cu il tarixli 16 nömrəli əmri ( IV hissə istisna olmaqla) qüvvədən düşmüş hesab edilsin.

**Nazir** **Oqtay Şirəliyev**